Qətiyyətli mövqe, dəqiq və şəffaf araşdırma

Ötən il dekabrın 25-də baş verən faciəvi təyyarə qəzası Azərbaycan xalqını dərin kədərə boğdu. Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus J2-8243 reysi Aktau yaxınlığında qəzaya uğradı, 38 nəfər həlak oldu, 29 nəfər isə müxtəlif dərəcəli xəsarət aldı.

Bu itki təkcə sərnişinlərin ailələri və yaxınlarını deyil, bütün millətimizi sarsıtdı. Prezident İlham Əliyev bu ağır vəziyyətdə məsuliyyətli və prinsipial mövqe nümayiş etdirərək ilk dəqiqələrdən aidiyyəti qurumları səfərbər etdi. Dövlət səviyyəsində göstərilən çevik reaksiyanın nəticəsi olaraq Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Dövlət Komissiyası yaradıldı.

(davamı 10-cu səhifədə)

Qətiyyətli mövqe, dəqiq və şəffaf araşdırma

(əvvəli 1-ci səhifədə)

Qazaxıstan hökuməti hadisənin səbəblərinin araşdırılması üçün beynəlxalq ekspertlərin iştirakı ilə xüsusi təhqiqat komissiyası yaratmışdır. ICAO-nun 13 saylı əlavəsinə uyğun olaraq ilkin nəticələrin yanvarın sonunda açıqlanacağı bildirilib. Qara qutuların Braziliyada təhlil edildiyi və nəticələrin dəqiq tarixinin məlum olmadığı qeyd edilib.

Rusiya Prezidenti Vladimir Putin ötən il dekabrın 28-də hadisənin Rusiya hava məkanında baş verməsi ilə əlaqədar üzr istəyərək həlak olanların ailələrinə başsağlığı verib. Azərbaycan Prezidenti İlham Əliyev isə rəsmi Moskvanın üzr istəməsi ilə yanaşı, günahı etiraf etmək və günahkarları cəzalandıraraq təzminat ödəmək tələblərini irəli sürüb: "Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir". Hazırda yalnız birinci tələb yerinə yetirilib, digər iki tələblə bağlı hələ də rəsmi açıqlama verilməyib.

Dekabrın 25-də Azərbaycana məxsus təyyarənin qəzaya uğraması ilk hadisə deyil, bunlar arasında texniki nasazlıqlar, pilot səhvləri və digər fövqəladə hallar da yer alır. 1965-ci ilin 25 yanvarında SSRİ Hərbi Hava Qüvvələrinə məxsus An-8 hərbi-nəqliyyat təyyarəsi Goran aerodromundan havaya qalxaraq Gəncə aerodromuna enişə edərkən qəzaya uğrayıb. Təyyarə Gəncə Yağ-piy kombinatının anbarlarına çırpılaraq yanıb. Nəticədə 6 heyət üzvü həlak olub. 1966-cı il 23 aprel tarixində Binə hava limanından (indiki Heydər Əliyev adına Beynəlxalq Hava Limanı) havaya qalxan İl-14P orta tutumlu sərnişin təyyarəsi Mahaçqalaya uçarkən qəzaya uğrayıb. Uçuşdan 12 dəqiqə sonra Xəzər dənizi üzərində təyyarə ilə əlaqə kəsilib. Axtarış-xilasetmə işləri heç bir nəticə verməyib. Göyərtəsində 5 heyət üzvü və 28 sərnişin olan İl-14P təyyarəsi tapılmayıb.

1973-cü il 18 avqust tarixində Bakı-Aktau-Bakı reysi ilə uçan AN-24B tipli sərnişin təyyarəsi Binə hava limanından havaya qalxdıqdan bir neçə dəqiqə sonra qəzaya uğrayıb. Təyyarənin göyərtəsində 60 sərnişin və 4 heyət üzvü olub. Qəzadan sağ qurtulan olmayıb. 1974-cü il 11 mayda Qax-Zaqatala bölgəsində aviasiya-kimya işləri həyata keçirən An-2 təyyarəsi qəza edib. 1988-ci il 12 dekabr tarixində Ermənistanın Spitak şəhərində baş vermiş zəlzələdə zərərçəkmiş ermənilərə yardım göndərən Azərbaycan İl-76 təyyarəsi Ermənistanın Quqark şəhəri yaxınlığında raketlə vurulub. Nəticədə 77 azərbaycanlı həlak olub, yalnız 1 nəfər sağ qalıb. 1989-cu il 18 oktyabrda SSRİ Hərbi Desant Qüvvələrinin 218-ci alayının 8-ci bölüyünü Bakıdan Ukraynaya aparan İl-76 hərbi-nəqliyyat təyyarəsi havaya qalxdıqdan 5 dəqiqə sonra qəzaya uğrayıb. Təyyarənin sağ mühərriki alışaraq qopub, nəticədə təyyarə yerə çırpılıb və 57 nəfər həlak olub.

1995-ci ilin 5 dekabrında Naxçıvan-Bakı reysi ilə hərəkət edən Tu-134 sərnişin təyyarəsi Naxçıvan aeroportundan havaya qalxandan sonra açıq sahəyə düşərək tamamilə yanıb. 4 heyət üzvü və 48 sərnişin həlak olub. 2005-ci il 23 dekabr tarixində Azərbaycan Hava Yollarına (AZAL) məxsus An 140-100 təyyarəsi Heydər Əliyev hava limanından havaya qalxdıqdan bir neçə dəqiqə sonra qəzaya uğrayıb. Nardaran qəsəbəsi yaxınlığında Xəzər dənizinə düşən təyyarədəki 4 heyət üzvü və 19 sərnişin həyatını itirib. 2019-cu il 24 iyulda Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29 döyüş təyyarəsi təlim uçuşu zamanı Xəzər dənizi üzərində qəzaya uğrayıb. Təyyarənin pilotu polkovnik-leytenant Rəşad Atakişiyev həlak olub. Təyyarənin qalıqları və pilotun cəsədi dənizin dibindən 1 ay sonra tapılıb. Bu hadisələr Azərbaycan aviasiya tarixində dərin iz qoyub və aviasiya sahəsində təhlükəsizliyin artırılmasına yönələn ciddi tədbirlərə səbəb olub.

Prezident İlham Əliyev ötən ilin dekabrında baş vermiş ən son faciənin detalları ilə bağlı artıq bütün lazımi addımları atıb. Yanvarın 6-da ölkə başçımız Bakı-Qroznı reysi zamanı baş vermiş faciəvi təyyarə qəzasında həlak olan ekipaj üzvlərinin ailə üzvləri və sağ qalan təyyarə bələdçiləri ilə görüşüb və hadisənin detallarını, dövlətin mövqeyini geniş şəkildə açıqlayıb.

Prezident çıxışında bildirib ki, dekabrın 25-də baş verən bu hadisə xarici müdaxilə nəticəsində təyyarənin idarəetməsini itirməsi ilə əlaqədar olub. Pilotların peşəkarlığı və qəhrəmanlığı sayəsində Aktau şəhərində qəza enişi edilib. Prezident İlham Əliyev məhz pilotların və ekipaj üzvlərinin fədakarlığı nəticəsində 30-a yaxın insanın sağ qaldığını qeyd edib. Dövlət başçımız bu qəhrəmanlığı yüksək qiymətləndirib: üç ekipaj üzvünə ölümündən sonra "Milli Qəhrəman" adı verilib, iki bələdçi isə "Rəşadət" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev istintaqın gedişatı barədə məlumat verərək dekabrın 29-da ilkin məlumatların əldə edildiyini vurğulayıb. Bildirilib ki, qəza nəticəsində təyyarənin radioelektron müdaxilə və yerdən açılan atəş səbəbindən zədələndiyi məlum olub. Həmçinin qeyd edilib ki, "qara qutu"ların açılması prosesi Azərbaycan, Qazaxıstan və Rusiya nümayəndələrinin iştirakı ilə Braziliyada aparılır. Ölkə başçısı görüş zamanı araşdırmanın tam obyektiv şəkildə aparılmasını təmin etmək üçün bu addımın atıldığını vurğulayıb.

Dövlət başçısı Rusiya rəsmi dairələrinin hadisənin obyektiv araşdırılmasında yetərli səylər göstərmədiyini qeyd edərək bu vəziyyətin Azərbaycan dövlətini ciddi narahat etdiyini bildirib: "Amma biz işin ört-basdır edilməsi, bunu hansısa quşların və ya qaz balonunun adına çıxmaq cəhdini gördükdə, təbii ki, həm mənim, həm də Azərbaycan ictimaiyyətinin bu strukturun təhqiqatının obyektivliyinə ciddi şübhələri yarandı. Hazırda "qara qutu"ların şifrəsinin açılması prosesi gedir. Əminəm ki, yaxın vaxtlarda biz ilkin nəticələri öyrənəcəyik və hər şey öz yerini tutacaq. Baş verən faciənin bütün mənzərəsi də məlum olacaq. Təbii ki, bu, faciənin tam araşdırılması və onun günahkarlarının cəzalandırılması işində mühüm məqam olacaq".

Prezident həlak olanların ailə üzvlərinə başsağlığı verib və Azərbaycan dövlətinin həmişə onların yanında olacağını bəyan edib. Eyni zamanda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və "Azərbaycan Hava Yolları" QSC-yə ailələrlə daimi əlaqə saxlamaları və onları narahat edən məsələləri operativ şəkildə həll etmələri tapşırılıb.

Tacir SADIQOV,
"Respublika".